# Qəbələ yeni yüksəliş mərhələsində

## 2017-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

(Əvvəli 4-cü səhifədə).

**Hörmətli yığıncaq iştirakçıları!**

Hər il olduğu kimi ötən il də rayonda tikinti-quruculuq işləri davam etdirilmişdir. Qəbələ Rayon Məhkəməsinin, rayon kənd təsərrüfatı idarəsinin, Qəbələ Peşə Tədris Mərkəzinin, Qəbələ Xalça Fabrikinin binalarında tikinti işləri başa çatdırılmış və həmin obyektlər istifadəyə verilmişdir.



Şəhərin Heydər Əliyev prospektində, Həzi Aslanov, 28 May, Xalid Qasımov, Ümnisə Musabəyova, Araz Cavadov küçələrində abadlıq işləri görülmüş, Muxtar Abduyev küçəsində isə 5 ədəd beşmərtəbəli ictimai yaşayış binası yeni dam örtükləri ilə örtülmüşdür. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün inşa olunan 2 ədəd yaşayış binası əsaslı təmir edilmişdir.

Rayonun Aydınqışlaq kənd tam orta məktəbi və Tikanlı kənd uşaq bağçası əsaslı təmir olunmuş, Cığatelli kənd tam orta, Seyidqışlaq kənd ümumi orta məktəbində modul tipli binalar tikilərək istismara verilmişdir.

"Qafqaz" Aqua Land Hoteldə, "Qafqaz" Diamond Akvaparkda, "Cıdır" Atçılıq İdman Kompleksində, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin, rayon prokurorluğunun və Gömrük Akademiyasının binalarında inşaat işləri davam etdirilmişdir.

Tikinti işlərinin 2018-ci ildə də yüksək templə aparılması təmin olunacaqdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

Bildiyiniz kimi Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı və "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın dördüncü ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqlərində Prezident cənab İlham Əliyev Qəbələdə yeni mərkəzi xəstəxana kompleksinin və Qəbələyə çəkiləcək dəmir yolunun tikintisinə başlanılacağını, şəhərin su-kanalizasiya şəbəkəsində tikinti-quraşdırma işlərinin başa çatdırılacağını qeyd etmişdir.

Bu ölkə başçısı tərəfindən rayonumuza çox böyük diqqət və qayğının parlaq təzahürü olmaqla yanaşı, həm də biz qəbələlilərin qarşısında dövlətçiliyimizə daha da sədaqətlə xidmət etmək istiqamətində mühüm vəzifələr qoyur.

İcazə verin, sizin və bütün Qəbələ ictimaiyyətinin adından bu qayğıya və diqqətə görə cənab İlham Əliyevə öz dərin minnətdarlığımızı bildirim.

Digər sahələrdə olduğu kimi 2017-ci ili rayonumuzun təhsil işçiləri də uğurla başa vurmuşlar.

Ötən il 31 nəfəri fərqlənmə attestatı olmaqla 1352 nəfər məzun ümumi orta təhsil kursu üzrə, 1277 nəfər məzun isə tam orta təhsil kursu üzrə attestat almışdır. Onlardan 3 nəfər qızıl, 1 nəfər gümüş medala layiq görülmüş, 30 nəfərə isə fərqlənmə attestatı verilmişdir.

Soltannuxa kənd tam orta məktəbinin məzunu Elsun Rzayev, Zarağan kənd 1 nömrəli tam orta məktəbin məzunu Nilufər Cəbrayılbəyli, şəhər 4 nömrəli tam orta məktəbin məzunu Nigar Müzəffərova qızıl medala, Məlikli kənd tam orta məktəbin məzunu Qönçə Bəxtiyarlı isə gümüş medala layiq görülmüşlər.

Şagirdlərimiz respublikada keçirilən müsabiqələrdə, yarışlarda, beynəlxalq layihələrdə və fənn olimpiadalarında uğurla iştirak etmişlər.

Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Mədinə Qasımova Beynəlxalq TEA proqramında iştirak edərək 4 mərhələli proqramın qalibi olmuş və 1 ay 20 gün müddətinə ABŞ-ın Şimali Karolina Ştatının Apalaki Universitetində təlim kurslarında iştirak etmişdir.

> *Gözəlliklər diyarı Qəbələdə ekoturizmin inkişafı üçün geniş imkanlar var.*
>
> **İlham ƏLİYEV.**

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsində şəhər 4 nömrəli tam orta məktəbin X sinif şagirdi Dünya Quliyeva fərqlənərək Təhsil Nazirliyi tərəfindən tərifnamə ilə təltif olunmuşdur.

Ötən dərs ilində şagirdlərdə tolerantlıq, İslam xalqları arasında sülh, həmrəylik, əməkdaşlıq, dostluq, əminamanlıq hisslərinin aşılanması, istedadlı uşaqların imkanlarının daha da inkişaf etdirilməsi məqsədilə rayonumuzda IV İslam Həmrəyliyi Oyunlarına həsr olunmuş respublika müsabiqəsinin zona mərhələsi keçirilmişdir. Müsabiqədə 11 rayonun şagirdləri 3 yaş kateqoriyası üzrə iştirak etmişlər. Qalib məktəblilərə diplomlar təqdim olunmuşdur. Qəbələ məktəblilərindən 5 nəfər isə xüsusi diplomlara layiq görülmüşdür.



*Qəbələ V Beynəlxalq Mürəbbə Festivalı.*

Ümumtəhsil məktəblərində təlimin keyfiyyətinin yüksək olmasını təsdiq edən amillərin əsasını məzunlarımızın ali və orta ixtisas məktəblərinə qəbul olunması səviyyəsi müəyyən edir. Qürur hissi ilə demək olar ki, ali məktəblərə sənəd verən 850 məzundan 527 nəfər ali məktəblərə daxil olmuşdur. Onlardan 57 nəfər 600-dən, 123 nəfər isə 500-dən çox bal toplamışdır. Tüntül kənd tam orta məktəbinin məzunu İmran Nəzirli 695 bal, Mıxlıqovaq kənd tam orta məktəbinin məzunu Aylin Şirinova 690 bal toplayaraq Prezident Təqaüdünə layiq görülmüşlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən 5 yaşlıların 65 faizi məktəbə hazırlıq qruplarına cəlb olunmuşdur.

Rayonumuzda fəaliyyət göstərən 23 məktəbəqədər təhsil müəssisəsinin maddi texniki bazasının daha da yaxşılaşdırılması məqsədilə 2017-ci ilin yerli büdcəsindən ayrılmış vəsaitə uyğun olaraq uşaq bağçalarına 10240 manatlıq yumşaq, 10242 manatlıq bərk inventar, 3963 manatlıq digər avadanlıqlar alınmışdır.

Cənab İlham Əliyevin tapşırığına əsasən respublikada IX-XI sinif şagirdləri arasında keçirilən "Ölkəmizi tanıyaq" tur-aksiyalarında ötən ilin mart və noyabr aylarının hər birində 2 mərhələ olmaqla, ölkənin digər rayonlarının məktəbliləri Qəbələyə gəlmiş, həmçinin rayonumuzun məktəbliləri həmin aksiyaya qoşularaq Gəncə-Şəmkir-Göygöl və Quba-Qusar-Xaçmaz rayonları ilə tanış olmuşlar.

(Ardı 6-cı səhifədə).